Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 27 (1155) 10 fevral - 11 fevral 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# FÜZULİ - GÖZƏL DİYAR...

**Bu yurdda, bu məkanda çox gözəl bir şəhər var: Horadiz. Əgər kiminsə yolu bu şəhərə düşsə, təəccüblənəcək. Ən azından xarabalığa qalmış və köhnə Horadizdən belə əsər-əlamət görməyəcək. Uzanıb gedən asfalt yol çox möhtəşəm və gözəldir. Bu yolun sağında da, solunda da küknar ağacları əkilib və bura da Heydər Əliyev prospekti adlanır. Çox qəribədir ki, dünyanın düz vaxtında, yəni Sovet dönəmində Horadiz şəhərində istidən durmaq mümkün deyildi. Sanki Allahın bu camaata, bu elə çox böyük sevgisi olduğundan Füzuli şəhərinin, Ərgünəşin o saf, sərin havasını Horadizə gətirib. Horadiz şəhərində çox vaxtlar yüz mindən çox küknar ağacı və digər yaşıl ağaclar əkilib. Bir-birindən gözəl xiyabanlar və parklar göz oxşayır. Xüsusən də Heydər Əliyev parkı və Bayraq meydanı möcüzəli bir görünüşə malikdir. Gecə saatlarında işıqlar burda bərq vurur, sanki bir Avropa şəhərini görürsən. Son illər inşa edilmiş obyektlər, şahmat mərkəzi, muğam mərkəzi, Heydər Əliyev mərkəzi, gənclər mərkəzi, Dövlət Dram Teatrı, ikimərtəbəli yeni məktəb və uşaq bağçası, sadalamaqla bitməyən yeni tikililər. Bunlar hamısı Horadizə əsrarəngiz bir gözəllik gətirir.**



> **"...Şəhərin abadlaşdırılması prosesi gedir, tikinti gedir. Yəni, burada hər cür sosial infrastruktur mövcuddur. Bu məqsədlər üçün vaxtaşırı vəsait ayrılır. Bundan sonra da ayıracağıq".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

### *İCRA BAŞÇISI PREZİDENTƏ VƏ DÖVLƏTÇİLİYƏ SƏDAQƏTLİDİR*

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bu vəzifəyə təyin olunandan sonra cənab prezidentin etimadını çox yaxşı doğruldub. Çünki o ilk gündən camaata, el-obaya arxalanıb və böyük quruculuq işlərinə başlayıb. Tez-tez kəndlərdə, yaşayış məntəqələrində səyyar görüşlər keçirir, orda insanların çətinliklərini, problemlərini öyrənir və həmin problemlərin də həllinə nail olur. Təbii ki, icra başçısı xalqa nə qədər yaxın olanda və sadəliyi ilə seçiləndə istər-istəməz el-obanın da dövlətə inamı bir qədər də artır. Alı müəllimin kabinetinin qapısı həmişə insanların üzünə açıq olur. Kimsə onun qəbuluna gəlibsə və dərdini demək istəyibsə heç bir çətinliyi olmayıb. Füzulinin Böyük Bəhmənli kəndində yaşayan İnşallah Hüseynov deyir ki, Alı müəllim çox vaxt elə özü bizim kəndə gəlir və camaatla görüşür. Bu görüşdə də mövcud problemlər öz həllini tapır. Daha bizim onun yanına getməyə ehtiyacımız qalmır. O, həmişə bizim kəndin xeyir-şərində iştirak edir, bir el ağsaqqalı kimi camaata daha yaxın olur. Bu hadisələr isə göstərir ki, Alı Alıyev cənab prezidentin etimadını çox şərəflə doğruldur.

Ölkə prezidenti İlham Əliyevin son müşavirədəki çıxışından sonra Füzulidə də sahibkarlara "yaşıl işıq" yandırılır. Elə əvvəllərdə də burda iş adamlarına və sahibkarlara çox normal münasibət bəslənilib. Yəni onların fəaliyyəti üçün əlverişli şərait yaradılıb. Bir neçə gün bundan əvvəl rayon fəallarının iştirakı ilə keçirilən yığıncaqda icra başçısı Alı Alıyev nəinki yerli sahibkarları, hətta kənarda olan imkanlı adamları da rayona dəvət edib. O bildirib ki, kim iş görmək istəyirsə, istehsalat sahəsi açmağa çalışırsa, onlara rayonda hər cür şərait yaradılacaq. Və heç kim nə iş adamlarına, nə də sahibkarlara əngəl törədə bilməz. Əgər kimsə buna cəhd eləsə, süni maneçilik yaradılsa, onların qarşısı operativ surətdə alınacaq. Son vaxtlar Füzulidə bir neçə yerdə iş yerləri açılıb. Bu iş yerlərində ayrı-ayrı insanların fəaliyyət göstərilməsinə lazımi şərait yaradılıb.

### *110 MİN TONDAN ÇOX TAXIL İSTEHSAL EDİLİB*

Bu sözləri bizimlə söhbətində rayonda məsul vəzifədə çalışan və kənd təsərrüfatı üzrə mütəxəssis Hüseyn Abbasov deyir. O bildirir ki, rayonun tarixində ötən il ən yüksək taxıl məhsulu əldə edilib. 110 min tondan çox taxıl yığılıb. Bu o deməkdir ki, nə qədər insanın bol çörəyi var. Bu il də şükür Allaha, xeyli sahədə taxıl əkilib. Əvvəlki illərlə müqayisədə taxılçılığa xüsusi diqqət yetirilib. Bununla yanaşı, heyvandarlığın inkişafı da sevindiricidir. Ölkə prezidenti İlham Əliyev cənablarının son tapşırığından sonra rayonumuzda pambıqçılığın, üzümçülüyün və digər kənd təsərrüfatı məhsullarının əkilməsinə və yetişdirilməsinə xüsusi diqqət yetiriləcək. Bu barədə rayon icra hakimiyyətinin başçısı Alı Alıyev də sahibkarlarla görüşündə öz tövsiyələrini və tapşırıqlarını verib və rayonda bunun üçün hər cür şərait yaradılıb.



### *"QAYIDIŞ"IN REDAKTORU MƏCNUN NAMAZƏLİYEV ÇOX NİKBİNDİR*

Məcnun Namazəliyev uzun müddətdir ki, rayon qəzetinin redaktoru işləyir. O, əvvəllər "Araz" qəzetinin, bu gün isə "Qayıdış"ın redaktorudur. Bununla yanaşı, Məcnun müəllim həm də rayon Ağsaqqallar Şurasının sədridir. Çox gözəl ziyalı, jurnalist və vətənpərvər bir insandır. O bildirir ki, bu gün rayonumuzda çox gözəl atmosfer var. Cəbhə bölgəsində olmağımıza baxmayaraq, ürəyimiz tam sakitdir. Çünki hər an, hər dəqiqə ölkə prezidenti İlham Əliyevin qayğısını, isti münasibətini və köməkliyini hiss edirik. Şükür Allaha, dolanışığımız, yaşayışımız və həyat tərzimiz normaldır. Ölkə prezidenti çox sağ olsun ki, bizə hər cür qayğı göstərir. Çörək pulu alırıq, işığa, qaza, suya pul vermirik və bunlar hamısı bizə çox böyük diqqətdir.

**Elə ona görə də bu gün Füzuli camaatı işğal altında olan torpaqlarımızın tezliklə qayıdacağına inanır və bu inamla da sabaha böyük ümid bəsləyirlər. Biz inanırıq ki, tezliklə Füzuli şəhərinə, Cəbrayıla, Qubadlıya, Laçına, Şuşaya qayıdacağıq.**

(ardı var)

***Faiq QİSMƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ